ADB

# Azərbaycandan

XƏBƏRLƏR

www.adb.org/AZRM
adbazrm@adb.org

Asiya İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyinin Rüblük Xəbərlər Bülleteni

Ikinci Rüb, 2006-cı il

## Asiyanın Yeni Problemləri ilə Üz-Üzə

**Qraham Dvayer**

Asiya elə dərin dəyişikliklər dövrünə daxil olmuşdur ki, əgər iqtisadi artım yüksək olaraq qalmaqda davam etsə və onun bəhrələri daha geniş surətdə paylansa, ən kəskin yoxsulluq o qədər də uzaq olmayan gələcəkdə demək olar ki, tamamilə ləğv edilə bilər.

Bununla yanaşı, bu regionda 1.9 milyard adam gündə 2 ABŞ dollarından az vəsaitlə dolanaraq yoxsulluq içərisində yaşayır. Region daha da çiçəkləndikcə, varlılarla yoxsullar arasında genişlənən fərqi aradan qaldırmağa çalışmaq lazımdır.

Bu, Hindistanın Heydərabad şəhərində 39-cu illik yığıncağa yekun vurarkən AİB-nın Prezidenti Haruhiko Kurodanın Ölkə üzrə Rəhbərlər Şurasına müraciətin əsas məzmunu idi.

İllik yığıncaq zamanı may ayının 3-dən 6-dək Heydərabad Beynəlxalq Konfrans Mərkəzinə 2000-dən artıq iştirakçı, o cümlədən yüksək rütbəli hökumət rəsmiləri, akademik dairələrin nümayəndələri, iş adamları, sərmayə qoyan bankların işçiləri, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyətinin nümayəndələri cəlb olunmuşdular.



**AİB İLƏ AZƏRBAYCAN ARASINDA GÖRÜŞ** Hindistanın Heydərabad şəhərində illik yığıncaq zamanı AİB-nın prezidenti Haruhiko Kuroda (ən solda) ikitərəfli görüş çərçivəsində İqtisadiyyat Nazirinin müavini Mikayıl Cabbarovla (ən sağda) görüşmüşdür.
İllik yığıncaq zamanı Azərbaycanın nümayəndə heyətinə başçılıq edən Mikayıl Cabbarov əməkdaşlığa olan ehtiyacı qeyd edərək söyləmişdir: " Yalnız bir yerdə işləməklə biz qloballaşmanın çətinliklərinə və imkanlarına hazırlaşa bilər, öz iqtisadiyyatlarımızı diversifikasiya və inteqrasiya edə, ticarət əlaqələrimizi inkişaf etdirə bilər, daha davamlı inkişafa nail ola bilər və təbii fəlakətlər və qlobal problemlərlə mübarizə apara bilərik."

Hindistanın ən yüksək sürətlə inkişaf edən yüksək texnologiyalı dəhlizində aparılan bu yığıncaq bu günün ən təxirəsalınmaz bir sıra məsələlərinin, o cümlədən qlobal qeyri-tarazlıqlar, AİB-nın Hindistan və Cənubi Asiya ilə tərəfdaşlığı, bərpa edilən enerji və iqlim dəyişiklikləri və Minilliyin İnkişaf Məqsədlərinə nail olunması məsələlərinin canlı müzakirəsi üçün bir forum rolu oynayırdı.

"Mütləq yoxsulluq azalmaqdadır. Ancaq qeyri-bərabərlik yüksəlməkdədir", cənab Kuroda yığıncağın açılış sessiyasında Asiyanın İki Üzü adlanan məruzəsində söyləmişdir.

## Azərbaycanın 2005-ci Ildəki Yüksəlişi Əvvəllər Görünməmiş Bir Yüksəlişdir

Azərbaycan Daimi Nümayəndəliyi (AZDN) aprel ayının 6-da mətbuat konfransı zamanı Asiya İnkişaf Perspektivlərini təqdim edərkən qeyd etmişdir ki, 2005-ci ildə Azətrbaycanın ümumi daxili məhsulunun artımı əvvəllər görünməmiş 26.4% təşkil etmişdir.

AZDN-də Ölkə üzrə İqtisadçı vəzifəsində çalışan Filip Çanq Azərbaycanın əlamətdar iqtisadi göstəricilərini, orta müddət üçün perspektivləri, çətinlikləri və riskləri təqdim etmişdir. O, eyni zamanda AİB-nın ona inkişaf etməkdə olan üzv ölkələrin (İÜÖ) 2005-ci ildəki iqtisadi göstəricilərinə dair apardığı qiymətləndirmənin icmalını vermişdir.

Cənab Çanq demişdir: "2005-ci ildə Azərbaycanda ÜDM-un artımı əvvəllər görünməmiş 26.4% səviyyəsində olmuşdur. AİB belə proqnozlaşdırır ki, son dövrlərdə qoyulmuş böyük investisiyalar tam işə düşdükcə neft və qaz istehsalı, eləcə də ixracatlar sayəsində bu irəliləyiş daha da yüksələrək 2006-cı ildə 30.5%-ə çatacaq və 2007-ci ildə də elə buna yaxın həcmdə olacaqdır.

"2006-cı ilin büdcəsində xərclərin xeyli dərəcədə artırılması nəzərdə tutulur, buna görə də Hökumətin keçən il yüksəlməyə başlamış inflyasiyaya əlverişli şərait yaradılmasının qarşısını almaq üçün xərcləmələri ehtiyatla idarə etməsi lazımdır,"- cənab Çanq qeyd etmişdir. "Əsas vəzifələr inflyasiyaya nəzarət edilməsi,

*(davamı 2-ci sahifədə)*

### Buraxılışda


- Azərbaycan AİB-nın Ticarətin Maliyyələşdirilməsinə Yardım Proqramına Qoşulur 2
- AZDN-nin Xəbərlər İcmalı 3
- Qarşıdan Gələn Tədbirlər 3
- Yeni Nəşrlər 3
- Bərpa Olunan Enerji üzrə TY Başlanmaq Üzrədir 4
- Diqqət Mərkəzi: İnzibati İşlər üzrə Baş Köməkçi 4

## Azərbaycanın 2005-Ci Ildəki Yüksəlişi Əvvəllər Görünməmiş Bir Yüksəlişdir

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan manatının dəyərinin həddindən artıq artmasının qarşısının alınması və iqtisadi bazanın diversifikasiya edilməsidir."

Yerli və beynəlxalq kütləvi informasiya vasitələrinin 20-dən artıq nümayəndəsi, o cümlədən ən yüksək kateqoriyaya mənsub olan Associated Press, Agence France Press və Reuters agentliklərinin nümayəndələri həmin mətbuat konfransında iştirak edirdilər. AİP 2006-nın təqdimatı Azərbaycanda bir neçə televiziya kanalı vasitəsi ilə də yayımlanmışdır.

Təqdimat zamanı cənab Çanq həmçinin inkişaf etməkdə olan Asiyanın güclü iqtisadi göstəricilərini, eləcə də 2005-ci ildə iqtisadi yüksəlişin əsas aparıcı amillərini və təsirlərini, Mərkəzi Asiyanın 2005-ci ildəki ciddi iqtisadi yüksəlişini və orta müddət üçün inkişaf perspektivlərini təqdim etmişdir.




**AİP BURAXILIŞI** Filip Çanq,Ölkə üzrə İqtisadçı, Azərbaycan Daimi Nümayəndəliyi (mərkəzdə) *Asiyanın İnkişaf Perspektivləri 2006*, AİB-nın aparıcı nəşrinə həsr edilmiş press brifinqdə Azərbaycanın iqtisadi fəaliyyətinin nəticələrini təqdim edir

### AİB söyləyir ki, Mərkəzi Asiyanın Sürətli Inkişafı 2006-2007-ci Illərdə Davam Edəcəkdir

Asiyanın İnkişaf Perspektivlərinə (AİP) əsasən Mərkəzi Asiya regionunda ÜDM artımı 2006-cı ildə 10.3%, 2007-ci ildə isə 9.8% həcmində proqnozlaşdırılmaqla bu region öz sürətli inkişafını saxlayacaqdır. 2005-ci ildə regionda artım 10.9% təşkil etmişdir.

2006-cı ildə regional inflyasiya səviyyəsinin azca artaraq təxminən 7.9%-ə çatacağı güman edilir, ancaq yüksək neft gəlirləri ilə əlaqədar olaraq cari hesablarda güclü izafi vəsait olacağı gözlənilir.

"Bir sıra Mərkəzi Asiya dövlətləri hal-hazırda həyata keçirilən islahat tədbirlərindən faydalanır. Lakin ümumi mənzərə arxasında neft istehsal edən ölkələrlə yerdə qalan ölkələr arasında geniş fərq gizlənir", AİP-nin 2006-cı il nəşrinin təqdimatı zamanı AİB-nın Baş İqtisadçısı İfzal Əli söyləmişdir.

# Azərbaycan AİB-nın Ticarətin Maliyyələşdirilməsinə Yardım Proqramına Qoşulur

May ayının 25-də AİB iki yerli bankla-Azəriqazbank və Bank Respublika ilə onların hər biri üçün 4 milyon ABŞ dolları məbləğində ticarətin maliyyələşdirilməsinə yardım sazişi imzaladı. Sazişlər yerli bankların Azərbaycanda ixracat və idxalatla məşğul olanların ticarətin maliyyələşdirilməsini təmin etmək sahəsindəki qabiliyyətlərini inkişaf etdirəcəkdir.

Azəriqazbank və Bank Respublika Azərbaycanda 2004-cü ilin may ayında işə düşmüş AİB-nın Ticarətin Maliyyələşdirilməsinə Yardım Proqramı (TMYP) altında AİB ilə saziş imzalamış özəl sektordan olan ilk banklardır. Bu proqrama əsasən AİB, emitent bankın təmin edilməmiş kommersiya risklərini və emitent bankların müvafiq ölkələrinin siyasi risklərini qismən kredit zəmanəti və bərpa edilən kredit mənbələri vasitəsi ilə öz üzərinə götürür.




**İMZALAMA MƏRASİMİ** Xədicə Həsənova (solda), Respublika Bankın İcraedici Şurasının sədri; Filip Çanq (soldan üçüncü), Ölkə üzrə İqtisadçı, AZDN və Azər Mövsumov (sağda), Azəriqazbankın İdarə Heyətinin sədri, ticarətin maliyyələşdirilməsinə yardım sazişlərini imzalayırlar

"Bu mənbələr ixracat və idxalatla məşğul olanların ticarət üçün etibarlı və münasib şərtlərlə maliyyə vəsaiti əldə etmələrinə imkan yaradacaq, eləcə də Azərbaycanın qeyri-neft sektorunda ticarətin və özəl sektorun inkişafına kömək edəcəkdir", Filip Çanq, AİB-nın Azərbaycan üzrə İqtisadçısı belə söyləyir.

"Özünün özəl sektor proqramları vasitəsi ilə, AİB maliyyə vasitəçiliyini və ticarətin maliyyələşdirilməsini, həmçinin biznes müəssisələri və investisiyalar üçün maliyyə vəsaitlərinin birbaşa əldə edilə bilməsini təkmilləşdirmək yolu ilə bank sektorunu dəstəkləməkdə davam edəcəkdir."

Bugünkü tarixədək TMYP üzrə yardım göstərilməsi üçün AİB-a üzv olan on iki inkişaf etməkdə olan ölkədə 21 yerli bank hədəfə götürülmüşdür. ■

# AZDN Xəbərlər İcmalı



Xuan Miranda

## AİB-nın Regional Departamenti Yenidən Təşkil Olunub

May ayının 1-dən başlayaraq Azərbaycan Daimi Nümayəndəliyi (AZDN) AİB-nın Mərkəzi və Qərbi Asiya Departamentinə (MQAD) tabe edilmişdir. Xuan Miranda MQAD-nın Baş Direktoru təyin edilmiş, hal-hazırda o, eyni zamanda AİB-nın İnnovasiya və Səmərəlilik Təşəbbüsünə rəhbərlik edir.

## Şərq-Qərb Nəqliyyat Dəhlizi Layihəsi Imzalanmışdır

AZDN Ölkə üzrə Direktoru Metyu Vestfol və Nəqliyyat Naziri Ziya Məmmədov iyun ayının 1-də Şərq-Qərb Nəqliyyat Dəhlizinin Təkmilləşdirilməsi Layihəsini maliyyələşdirmək üçün ümumi həcmi 52 milyon ABŞ dolları məbləğində iki krediti imzalamışlar. İmzalanma mərasiminə 30-dan çox hökumət və kütləvi informasiya vasitələrinin nümayəndələri qatılmışdı. Pres rilizi bu vebsaytda oxuya bilərsiniz: http://adb.org/Documents/News/AZRM.



## Davamlı İnkişaf Strategiyası üzrə Regional Görüşlər Keçirilmişdir

AZDN-nin əməkdaşları Minilliyin İnkişaf Məqsədləri çərçivəsində uzun müddətli davamlı inkişaf strategiyasının həyata keçirilməsi üzrə AİB-nın texniki yardım layihəsinin tərkib hissəsi olaraq regional şəhərlər olan Şəki, Lənkəran və Gəncədə görüşlər keçirmişdir. Yerli hökumətin, donorların, qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyətinin nümayəndələri regionlarda yoxsulluğun azaldılması yollarını müzakirə etmişlər.



## Yeni Nəşrlər

### Mərkəzi Asiya: Ticarət Siyasəti, Nəqliyyat və Gömrük Tranziti Sahəsində Regional Əməkdaşlıq Vasitəsi ilə Ticarətdən Əldə Edilən Gəlirlərin Artırılması




Hesabat ticarət siyasəti, nəqliyyat və gömrük tranziti sahəsində regional əməkdaşlıq vasitəsi ilə Azərbaycanın, Qazaxstanın, Qırğızstan Respublikasının, Tacikistanın və Özbəkistanın beynəlxalq ticarətdə iştirak etməkdən əldə etdiyi gəlirlərini necə artıra biləcəklərini göstərməyə çalışır. Bu ölkələr üçün həmin üç sahədə əməkdaşlığın mövcud olmadığına görə baş verən xərclərin və regional əməkdaşlığın inkişaf etdirilməsindən gələ biləcək mənfəətin kəmiyyətlə ifadə edilməsinə cəhd edilir.

*Hesabatı sifariş etmək üçün AZDN ilə əlaqə saxlayın, yaxud bu internet saytından yükləyin: http://adb/org/Documents/Reports/JA-Trade-Policy*

### Asiyada Əmək Bazarları




Asiyadakı işçi qüvvəsinin ən azı üçdə biri ya işsizdir, ya da qismən işlə təmin olunub. Əgər qarşıda Asiyada Minilliyin İnkişaf Məqsədlərinə nail olunması məqsədi dayanırsa, onda orada kütləvi surətdə iş yerlərinin yaradılması lazımdır. Çin Xalq Respublikası, Hindistan, İndoneziya, Filippin və Vyetnamda aparılan ölkə tədqiqatları göstərir ki, məhsuldarlığın sürətlə yüksəlməsinin iş yerlərinin yaradılmasına xidmət etməsi üçün istehsalatın daha sürətli genişlənməsinə ehtiyac vardır. Kitabın təqdimatı aprel ayının 27-də Nyu Dehlidə keçirilmişdir, onu Palqrav Makmillan vasitəsi ilə əldə etmək olar.

## AİB-nın Qarşıdan Gələn Tədbirləri

- 10–14 Iyul
  Ümumdünya Gömrük Təşkilatının Standartların və Ümumi Məlumatlar Modelinin Yeni Çərçivəsi Urumçi, Çin Xalq Respublikası (ÇXR)

- 24-25 avqust (təsdiq olunmalıdır)
  Nəqliyyat Sektorunun Kordinasiya Komitəsinin Altıncı Yığıncağı
  Urumçi, ÇXR

- 28 avqust (təsdiq olunmalıdır)
  Yuxarı Rütbəli Məmurların Hazırlıq Görüşü
  Urumçi, ÇXR

# Bərpa Olunan Enerji Layihəsi Başlandı

Azərbaycanda bərpa olunan enerjinin inkişafı üçün potensialın və müxtəlif yolların araşdırılması üçün 900,000 ABŞ dolları məbləğində texniki yardım (TY) vasitəsi ilə öyrəniləcəkdir. May ayının 26-da AİB və Azərbaycan Hökuməti bu TY layihəsi üçün qrant sazişi imzalamışlar.

Fin hökumətinin dəstəklədiyi bu layihə çərçivəsində bərpa olunan enerjinin inkişafını gücləndirmək üçün fəaliyyət planı hazırlanacaq və ən məqsədəuyğun bərpa olunan enerji növləri üçün pilot layihələr dizayn ediləcəkdir.

"Bərpa olunan enerji mənbələri Azərbaycanda yoxsulluğun daha da azaldılması üçün vacibdir, çünki o, istehsalı stimullaşdırır, gəlirləri artırır və yeni iş yerləri yaradır", AİB-nin Azərbaycan üzrə Ölkə İqtisadçısı vəzifəsində çalışan cənab Filip Çanq söyləyir.

Ümumi daxili məhsulun təxminən üçdə birini təmin etməklə enerji sektoru Azərbaycan iqtisadiyyatında mərkəzi rol oynayır. Baxmayaraq ki, Azərbaycan özəl sektoru uğurlu surətdə neft və qazın çıxarılmasına və ixrac edilməsinə cəlb etmişdir, ölkədaxili enerji sektoruna xüsusilə də kənd yerlərində və ucqar zonalarda, köhnələn infrastrukturu təkmilləşdirmək və enerji təchizatını genişləndirmək üçün təcili olaraq investisiya qoyulmasına ehtiyacı vardır. Ölkənin bəzi regionlarında zəruri enerji ehtiyacları güclə ödənsə də, elektrik enerjisinin etibarlı olmayan təchizatı iqtisadi artıma mane olur və iş yerləri yaradılmasını məhdudlaşdırır.

"Alternativ və bərpa olunan enerji mənbələrinin, əsasən də su elektrik stansiyaları və külək enerjisi stansiyalarının yaradılması enerji çatışmazlığını aradan qaldırmaq üçün rəqabətli və ətraf mühitə təsir baxımından münasib variant ola bilər", cənab Çanq söylədi.

Layihənin ümumi dəyərinin 200,000 ABŞ dollarının Finlandiya hökuməti, 500,000 ABŞ dollarını isə AİB ödəyir. Hökümət isə bu layihəyə 200,000 ABŞ dolları miqdarında dəstək olacaqdır. 10 aydan artıq bir müddət ərzində həyata keçiriləcək bu layihədə icraedici agentlik Sənaye və Enerji Nazirliyi olacaqdır.

Aşağıdakı vebsaytda TY sənədinə baxın: http://www.adb.org/Documents/TARs/AZE/39622-AZE-TAR.pdf ■




**BƏRPA OLUNAN ENERJİ (soldan) Filip Çanq, Ölkə üzrə İqtisadçı, AZDN və Natiq Əliyev Sənaye və Energetika Naziri texniki yardım sazişini imzalayırlar**

## Diqqət Mərkəzi:

## İnzibati İşlər üzrə Baş Köməkçi



**Yuliya Haqverdiyeva** 2004-cü ilin oktyabr ayında AİB-nın Azərbaycandakı Daimi Nümayəndəliyinə (AZDN) İnzibati İşlər üzrə Baş Köməkçi kimi qoşulmuşdur. O, 1998-ci ildə Azərbaycan Dillər Universitetini bitirmişdir. Xanım Haqverdiyeva öz karyerasına 1997-ci ildə Avropa İttifaqı (Aİ) TASİS-in (Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım) Azərbaycanda İqtisadi meyllər layihəsində ofis meneceri və mühasib kimi başlamışdır. Ondan əvvəl isə xanım Haqverdiyeva Aİ-nın monitorinq və qiymətləndirmə proqramı, milli kordinasiya qrupu və dövlət qulluğunun islahatı layihələrində qrup rəhbərinin köməkçisi, ofis administratoru və maliyyə işləri üzrə əməkdaş kimi işləmişdir.

Xanım Haqverdiyeva Britaniya Şurasının ingilis dili kurslarını, Azərbaycan Dövlət Znaniye cəmiyyətinin mühasibatlıq kurslarını və Aİ TASİS-in maliyyənin idarə edilməsi və mühasibatlıq proqramlarını bitirmişdir.

Azərbaycandan
XƏBƏRLƏR

Bu Asiya İnkişaf Bankının (AİB) Azərbaycandakı Daimi Nümayəndəliyinin (AZDN) rüblük xəbərlər bülletenidir hansı ki, AİB-nın və onun əməkdaşlıq etdiyi qruplar arasında əlaqəni daha da gücləndirilməsi məqsədinə ünvanlanıb. Azərbaycandan Xəbərlər AİB-na dair məlumatın yayılması və Azərbaycanda inkişaf məsələlərin müzakirəsinə ünvanlanıb. Halbuki, nəşrdə qeyd olunan fikirlər AİB-nın rəsmi mövqeyini əks etdirməyə bilər. Biz oxucuların iradlarını və təkliflərini alqışlayırıq.

Azərbaycanda Daimi Nümayəndəlik
Nizami küç. 96,
Ləndmark Binası,
4-cü mərtəbə
Bakı AZ 1010, Azərbaycan
Tel: (994 12) 496 5800
Faks: (994 12) 465 9990
adbazrm@adb.org
www.adb.org/azrm

Ölkə Üzrə Direktor: Metyu Vestfol

## www.adb.org

- **Biznes imkanları:** www.adb.org/business/opportunies
- **Media sorğuları və son xəbərlər** www.adb.org/media
- **Nəşrlər:** www.adb.org/publications və yaxud faks: +63 2 636 2648